**T.Ə.ƏLİYEVA**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail:tureeliyeva@mail.ru*
**:https://orcid.org/0009-0005-4237-8751**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2025.4.469**

# SİNİFDƏNXARİC TƏDBİRLƏRDƏ YENİYETMƏLƏRDƏ MÜSTƏQİL FƏALİYYƏTİN FORMALAŞDIRILMASI

***Xülasə.*** *Məqalədə müəyyənləşdirilir ki, fənn müəllimləri, sinif rəhbərləri yeniyetmələrdə müstəqilliyi formalaşdırmaq, onların idraki, təlim və intellektual müstəqilliyinə nail olmaq üçün bu prosesin pedaqoji-psixoloji şərtləri müəyyən olunmalıdırlar. Müstəqil fikrə, təfəkkürə və fəaliyyətə qabil olan şəxs çətinliklə qarşılaşmır. Ona görə də, yeniyetmələrdə müstəqilliyin formalaşdırılması kimi mühüm probleminin uzlaşdırılması pedaqoji kollektivlərin diqqət mərkəzində dayanmalıdır.*

***Açar sözlər:*** *sinifdənxaric tədbirlər, müstəqil fəaliyyət və təfəkkür, pedaqoji-psixoloji şərtlər, reproduktiv xarakterli vəzifələr, bacarıqlar*

Yeniyetmələrin hərtərəfli və ahəngdar inkişaf etməsi üçün istər ailə, istərsə də məktəb onlarda bir sıra vacib keyfiyyətlərin təşəkkül tapıb formalaşması qayğısına qalmalıdır. Bu keyfiyyətlər sırasında müstəqilliyin tərbiyə olunması və inkişaf etdirilməsi xüsusi yer tutur. Yeniyetməlik yaşı elə bir dövrdür ki, yeniyetmə özü istər-istəməz müstəqilliyə can atır, onlarda özlərini böyüklər kimi aparmaq, sözə, nəsihətə qulaq asmamaq, tabe olmamaq cəhdi təşəkkül tapır. Bütün bunlar yaş dövrünün xüsusiyyətlərindən irəli gəlir. Orta yaşlı məktəblilər öz hərəkətlərinə, davranış və rəftarlarına tənqidi yanaşır, onlar yaşlıların hərəkətlərinin mexaniki təkrarlanmaqdan azad olurlar. Bu yaş dövrü başqa yaş dövrlərindən fərqli olaraq öz ziddiyyətləri ilə seçilir.

Sinifdənxaric tədbirlər şagirdlərin ahəngdar və hərtərəfli inkişafına, onlarda mənəvi keyfiyyətlərin, mənəvi şüurun və mənəvi təfəkkürün, nümunəvi davranışın təşəkkül tapmasına kömək göstərir. Məqsədyönlü, sistemli, planauyğun sinifdənxaric tədbirlərin gedişində məktəblilərdə idraki marağın və idraki motivasiyanın, yaradıcı qabiliyyətlərin, zəruri informasiyaya yiyələnmək, həmyaşıdları və böyüklərlə ünsiyyətə girmək bacarığının inkişafı təmin olunur.

Sinifdənxaric iş, təlim fəaliyyəti istisna olmaqla, şagirdlərin bütün fəaliyyət növlərini özündə birləşdirir. Qabaqcıl məktəblərdə sinifdənxaric tədbirlərin həyata keçirilməsi ümumtəhsil məktəbinin bütün daxili resurslarının optimallaşdırılması əsasında qurulur. Sinifdənxaric iş təlim prosesi ilə sıx əlaqədə həyata keçirildiyi, dərsdə öyrənilən biliklərin daha da genişləndirilməsinə şərait yaratdığı təqdirdə son dərəcə səmərəli olur.

Təlimin mahiyyətindən danışmalı olsaq, deyə bilərik ki, o, məktəbli oğlanların və qızların idrak fəallığının, yaradıcı müstəqilliklərinin inkişaf etdirilməsinə istiqamətlənən pedaqoji prosesdir. Təlim prosesi şagirdlərin elmi biliklərlə silahlanmalarına, həyati bacarıq və vərdişlərə yiyələnmələrinə, onlarda dünyagörüşün, mənəvi-estetik inam və əqidənin formalaşmasına yardımçı olur.

Lakin biliklərə, zəruri məlumatlara yiyələnməni təkcə təlim prosesi ilə məhdudlaşdırmaq kifayət deyildir. Sinifdənxaric tədbirlərin imkanlarından da faydalanmaq lazımdır. Lakin təlim prosesi ilə sinifdənxaric tədbirlərin bir-birini tamamlaması son dərəcə vacib şərtdir. Belə

ki, müxtəlif fənlər üzrə dərslərdə öyrənilmiş materiallara, mövzulara müxtəlif vasitələrin, sinifdənxaric iş formalarının, tutaq ki, dərnək məşğələsinin, elmi konfransın, söhbət, müsabiqə, yarış, viktorinanın köməyi ilə yada salınması səmərəliliyi artırır, şagirdlərin bilik, bacarıq və vərdişlərinin səviyyəsini yüksəldir. Biliklər yada salınır, təkrarlanır, əlavə yeni məlumatlar alınır, biliklər genişləndirilir və möhkəmləndirilir.

Təlim prosesi bir çox funksiyalara malikdir. Alimlərin bəziləri üç, bəziləri altı əsas funksiyanı diqqət mərkəzinə gətirirlər: "Təhsilləndirici funksiya. 2. İnkişafetdirici funksiya. 3. Tərbiyələndirici funksiya. 4. Sosial funksiya. 5. Valeoloji funksiya. 6. Sosial müdafiə, və ya pedaqoji dayaq funksiyası" [1, s.71].

Təlim müəllimin və şagirdin eyni zamandakı fəaliyyəti və didaktik qarşılıqlı əlaqəsi olmadan mümkün deyildir. Müəllim tədris materialını nə qədər ustalıqla və yüksək səviyyədə şərh edirsə-etsin, şagirdlərin aktiv fəaliyyəti olmasa, biliklər mənimsənilməyəcək. Bundan başqa, müəllim motivasiya yaratmasa və məktəblilərin idrak fəallığını təmin etməsə, təlim prosesi səmərəli olmayacaqdır. [4, s.168]. Deməli, təlim prosesi heç də yalnız müəllimin şagirdə təsiri ilə şərtlənmir, onların qarşılıqlı fəaliyyətinə əsaslanır.

Şagirdlərin fəallığına, müstəqilliyinə, təşəbbüskarlığına nail olmaq, onların dünyagörüşünü genişləndirmək, müsbət keyfiyyətlərini inkişaf etdirmək, nümunəvi davranışını, ünsiyyətini və nitqini təmin etmək üçün təlim prosesi ilə sinifdənxaric tədbirlər arasında sıx əlaqə yaradılmalıdır.

Şagirdlərin Azərbaycan dövlətçiliyinə, tarixi şəxsiyyətlərə, mütəfəkkirlərə, azərbaycançılıq ənənələrinə, klassik və müasir şair və yazıçılara, alimlərə, bəstəkarlara, rəssamlara, əmək adamlarına hörmət hisslərini qüvvətləndirmək, fəal vətəndaşlıq mövqeyi qazanmaq baxımından təlim prosesinin və sinifdənxaric işin qarşılıqlı əlaqəsinin rolu böyükdür.

Tədqiqat göstərdi ki, sinifdənxaric tədbirlər zamanı müstəqilliyin inkişaf etdirilməsi üzrə aşağıdakı pedaqoji prinsiplərdən faydalanmaq səmərəlidir: 1) könüllülük prinsipi; 2) müəllim və yeniyetmənin əməkdaşlığı prinsipi; 3) yeniyetməyə inam və etibar prinsipi; 4) sinifdənxaric tədbirin həyatla əlaqəsi prinsipi; 5) yeniyetmələrin yaş, fərdi və cinsi xüsusiyyətlərinin nəzərə alınması prinsipi; 6) sinifdənxaric tədbirin təlim prosesi ilə əlaqələndirilməsi prinsipi; 7) motivasiya prinsipi; 8) yeniyetmələrin müstəqilliyinin təmin olunması prinsipi; 9) təşəbbüskarlığın və yaradıcılığının inkişaf etdirilməsi prinsipi; 10) sinifdənxaric tədbirlərin təşkili zamanı demokratizim və humanistləşdirməyə əsaslanma prinsipi; 11) tərbiyəvi təsirlərdə vahidliyin gözlənilməsi prinsipi; 12) hörmət və tələbkarlıq prinsipi; 13) yeniyetmələrin müstəqil fəaliyyətinə nəzarət prinsipi; 14) komplekslilik prinsipi.

Müstəqil işin nəzəriyyəsinin tarixi-pedaqoji əsaslarının, müstəqilliyin inkişafının öyrənilməsi bir sıra ziddiyyətləri meydana çıxardı. Onları diqqət mərkəzinə gətirək: ümumtəhsil məktəbləri məzunlarının artan ictimai tələbatları ilə onların müstəqil və kreativ tələbatları və ümumtəhsil sisteminin şagirdlərdə maksimum müstəqilliyin yaradılmasına lazımi səviyyədə hazır olmaması arasındakı ziddiyyətlər; elmi-nəzəri səviyyədə: şagirdlərin müstəqil işlərinin təşkili nəzəriyyəsinə əsaslı töhfə verən yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələri və təhsilalanların müstəqilliyinin inkişaf etdirilməsi sahəsində məktəbin praktik fəaliyyəti arasında uyğunsuzluq; elmi-metodik səviyyədə: şagirdlərin müstəqilliyinin formalaşdırılması üzrə elmi cəhətdən əsaslandırılmış təlimati sənədə tələbat və şagirdlərin müstəqilliyini təmin edəcək obyekt-fənn sahəsinin lazımi səviyyədə hazırlanmaması arasındakı ziddiyyət.

Təlim fəaliyyətində yeniyetmələrin müstəqilliyi səviyyəsinin yüksəldilməsi imkan verir ki: 1) fənlərarası əlaqələrin həyata keçirilməsi səviyyəsində bilik, fəaliyyət və münasibətlərin formalaşdırılması sahəsi genişləndirilsin; 2) müvafiq biliklərin və fəaliyyətlərin müstəqil axtarışı üzrə tədris vəzifələrinin yerinə yetirilməsində müəllimin göstərişlərindən, müvafiq bilik və fəaliyyətlərdən istifadənin zəruriliyinə keçid edilsin; 3) yerinə yetirilmiş ayrı-ayrı əməliyyatların formalaşdırılmasından bütün fəaliyyətin formalaşdırılmasına keçid edilsin; 4) hazır şəkildə olan fəaliyyətlərə yiyələnmədən ayrı-ayrı fəaliyyətlərin müstəqil müəyyənləşdirilməsi-

nə və icrasına keçid edilsin; 5) konkret bacarıqlara, məlumatlara yiyələnmənin vacibliyinin dərk edilməsindən tədris fəaliyyətinin tamyönlü quruluşuna yiyələnmənin zəruriliyinin dərkedilməsinə keçid edilsin; 6) reproduktiv xarakterli vəzifələrdən (tapşırıqlardan) yaradıcı tapşırıqlara keçid edilsin və s.

Fənn müəllimləri, sinif rəhbərləri yeniyetmələrdə müstəqilliyi səmərəli şəkildə formalaşdırmaq, onların idrak müstəqilliyinə, təlim müstəqilliyinə və intellektual müstəqilliyinə nail olmaq üçün müstəqilliyi inkişaf etdirməyin pedaqoji-psixoloji şərtlərinə bələd olmalıdırlar. Müstəqil fikrə, müstəqil təfəkkürə, müstəqil fəaliyyət göstərməyə qabil olan şəxs çətinliklə qarşılaşmır. Daha doğrusu, qarşısına çətinlik çıxdıqda onun öhdəsindən gəlməyi bacarır. Ona görə də, yeniyetmələrdə müstəqilliyin formalaşdırılması kimi mühüm probleminin uzlaşdırılması pedaqoji kollektivlərin diqqət mərkəzində dayanmalıdır.

Son dövrlərdə aparılmış tədqiqatlara müraciət etdik. İ.B.Zotova araşdırmalarını məktəblilərin müstəqil fəaliyyətinin formalaşdırılmasında sinif və sinifdənkənar işin qarşılıqlı əlaqəsinə [4], N.İ. Loqinova yardımçı məktəbdə təlim və sinifdənxaric işin qarşılıqlı əlaqəsinin həyata keçirilməsi xüsusiyyətlərinə [7], V.İ.Kazarenkov məktəblilərin sinif və sinifdənxaric məşğələlərinin inteqrasiyası [5] problemlərinə həsr etmişlər.

Nəzərdən keçirdiyimiz ədəbiyyatdan göründüyü kimi, tədqiqatçıların heç biri yeniyetmələrdə müstəqilliyin formalaşdırılması baxımından təlim prosesi və sinifdənxaric işin qarşılıqlı əlaqəsi problemini araşdırmağı qarşısına məqsəd qoymamışdır.

Görkəmli pedaqoq N.M.Kazımovun qənaətincə, uşaqların özlərini uşaq kimi aparmamaları, müstəqil olmaları üçün aşağıdakı məsələlər diqqət mərkəzində dayanmalıdır: "1) elə şərait yaradılmalıdır ki, müstəqillik mümkün olsun və onların gücünə uyğun gəlsin; 2) elə şərait yaradılmalıdır ki, müstəqillik nüfuzlu və cəlbedici olsun; 3) elə şərait yaradılmalıdır ki, müstəqillik hökmən və zəruri olsun" [2, s.143].

Biz eyni zamanda MDB məkanında aparılmış elmi-tədqiqatlarla, müdafiə olunmuş dissertasiyalarla da maraqlandıq. Həmin tədqiqatların əksər qismi idrak müstəqilliyinin tərbiyə olunması ilə bağlıdır. N.D.Putina, V.N.Luriya, Q.İ.Nazarova və b.-nın tədqiqatlarını nümunə gətirmək mümkündür. Digər qismi təhsilalanların təlim prosesində müstəqilliyi ilə əlaqədardır.

Ümumpedaqoji aspektdə təlim-tərbiyə prosesinin funksiyalarının tam şəkildə əmək tərbiyəsi ilə (A.Y.Koçetov, V.V.Serikov, Y.B.Yanotovskaya və v.), mənəvi tərbiyə ilə (O.S.Boqdanova, E.B.Bondarevskaya, Z.İ.Basulyeva, A.B.Sosimovski, A.Y.Dulov, İ.S.Maryenko, K.D.Radina, M.İ.Şilova və b.), şagirdlərin özünütərbiyəsi problemi ilə (A.Q.Kovalyov, S.M.Kovalyov, A.Y.Koçetov, Y.İ.Tuvinski və b.), şagirdlərin özfəaliyyəti prinsipi ilə (V.M.Korotov, K.D.Radina, S.E.Xoze və b.), didaktikada məktəblilərin müstəqilliyi prinsipi ilə (Y.K.Babanski, B.S.Qerşunski, A.K.Qromtseva, M.A.Danilov, M.N.Skatkin, Q.İ.Şukina və b.) əlaqədə nəzərdən keçirilməsində şagirdin müstəqilliyinin əhəmiyyətini açıqlayırlar.

Müstəqilliyin ümumpedaqoji aspekti fərdiləşdirilmiş təlim, modul təlim və təlim prosesində şagirdlərə fərdi yanaşma problemlərində (A.A.Udarnı, A.N.Konev, E.S.Rabunski, Y.E.Unt və b.) öz əksini tapmışdır.

Ümumi pedaqogika üçün məktəblilərin, o cümlədən yeniyetmə şagirdlərin müstəqilliyinin tərbiyə olunması problemi təlim və tərbiyənin çox mühüm vəzifələrindəndir. Bu sahədə mövcud olan informasiyanın həcmi çox böyükdür, çoxplanlıdır.

Belə ki, məsələn, müstəqilliyin psixoloji strukturu və növlərini tədqiq edən N.Y.Dmitriyeva göstərir: "Müstəqillik xarakter əlaməti, şəxsiyyətin elə xassəsidir ki, həyatın müəyyən etdiyi vəzifələrin iradi səy əsasında həllindən ötrü mövcud biliklərdən ağılla istifadə olunmasında təzahür edir" [3, s.148].

Müstəqilliyin psixoloji strukturu N.Y.Dmitriyeva tərəfindən işlənmişdir. Bu struktur, N.Y.Dmitriyevaya görə, "biliklər sistemini; təfəkkür fəaliyyətinin metodlarına yiyələnməni; müəyyən təşkilati-texniki vərdişlərə sahib olmağı; iradı məqsədəuyğunluğa malik olmağı; şəxsiyyətin tələbatları və maraqları ilə bağlı olan vəzifələrin yerinə yetirilməsinə istiqamətlən-

məni özündə aşağıdakıları əhatə edir” [3, s.144]. Dmitriyeva müstəqilliyin həm təlim fəaliyyətində, həm də məişət, ictimai və peşə-texniki fəaliyyətdə təzahür etdiyinə diqqəti yönəldir.

İ.S.Kon isə müstəqilliyə aşağıdakı tərifi verir: “Müstəqillik asılı olmamağı, xarici təhrikdən azadolmanı, öz ağlı ilə yaşamaq bacarığını və arzusunu, öz mövqeyində dayanmağı …nəzərdə tutur” [6, s. 218]. İ.S.Kona görə, insan nəinki özünü tanıyır, kəşf edir, həm də fəal surətdə özünü formalaşdırır. Müstəqilliyi sosial-psixoloji nöqteyi-nəzərdən təhlil edən İ.S.Kon bildirir ki, tənhalıqda (tək qaldıqda) insanın öz müstəqilliyində qalması çətindir, o, ətrafdakılardan dəstək aldıqda müstəqilliyi də artır.

A.V.Petrovskinin qənaətinə görə, təbii şəraitlərdə, yəni kollektiv və fərdin birgə fəaliyyəti şəraitindən şəxsiyyət öz davranışına nəzarət edərək, kollektiv fəaliyyəti nəzərə alaraq öz müstəqilliyini konstruktiv şəkildə həyata keçirir. V.A.Nerovnıxaya görə isə, müstəqillik fəallığın yüksək formasıdır, bu, elə təfəkkür qabiliyyəti, şəxsiyyətin elə xassəsi, onun xüsusiyyətləridir ki, fəaliyyətdə ətrafdan (kənardan) rəhbərlik olmadan, özünün şəxsi daxili təhriklərdən çıxış edərək fəaliyyət göstərməyə cəhddir. Müstəqillik nəinki intensiv fəaliyyəti, həm də baş qaldıran məsələləri müstəqil həll etməyi nəzərdə tutur.

V.N.Luriyanın nöqteyi-nəzərincə, “müstəqillik – öz davranışını şəxsi baxışlarına və əqidəsinə tabe etmək bacarığıdır. Müstəqil insanı onun əqidəsi, inamı ilə razılaşmayanlara boyun əymir... Müstəqil insan başqalarının ağıllı məsləhətlərini və göstərişlərini nəzərdən keçirməyə, onları qiymətləndirməyə və qəbul etməyə hazırdır” [7, s. 151].

S.L.Rubinşteyn də “müstəqillik” anlayışına münasibət bildirmişdir. Görkəmli psixoloq göstərir ki, həqiqi müstəqillik şüurlu motivasiyalı fəaliyyəti və onun əsaslandırılmış olmasını nəzərdə tutur. Rubinşteyn özgə təsirlərinə və təlqinlərinə meyilli olmamağı özünəməxsus iradə yox, müstəqil iradənin həqiqi təzahürü hesab edir.

Pedaqogikada təlimdə şagirdlərin müstəqilliyi ideyası klassiklərin əsərlərində tərbiyənin təbiətəmüvafiklik prinsipinə əsasən nəzərdən keçirilir. Bəzi müasir əsərlərdə təbiətəmüvafiklik aşağıdakı kateqoriyalarla uyğunluqda nəzərdən keçirilir: şüurluluq, fəallıq və müstəqillik; fəallıq və müstəqillik.

Bəzi tədqiqatçılar isə, didaktik prinsiplər sistemində müstəqilliyi nədənsə ümumiyyətlə qeyd etmirlər. Belə ki, L.M.Pimenova göstərir ki, müstəqillik heç də ayrıca götürülmüş şəxsiyyət xassə deyil, şəxsiyyətin inkişafının istiqamətini müəyyən edir.

Beləliklə, deyilənlərdən görünür ki, istər respublikamızda, istərsə də MDB məkanına daxil olan ölkələrdə dərs və sinifdənxaric işin qarşılıqlı əlaqəsi, varisliyi məsələsi bu və ya digər dərəcədə araşdırılmışdır. Təhsilalanlarda müstəqilliyin formalaşdırılması problemi keçmiş SSRİ-yə daxil olan respublikalarda xüsusi tədqiqatların mövzusu olmuş, lakin ölkəmiz bu tədqiqatlardan kənarda qalmışdır. Təlim prosesi və sinifdənxaric işin qarşılıqlı əlaqəsi şəraitində yeniyetmələrdə müstəqilliyin formalaşdırılması problemi tədqiqatların obyekti olmamışdır.

***Nəticə.*** Fənn müəllimləri, sinif rəhbərləri yeniyetmələrdə müstəqilliyi səmərəli şəkildə formalaşdırmaq, onların idrak müstəqilliyinə, təlim müstəqilliyinə və intellektual müstəqilliyinə nail olmaq üçün müstəqilliyi inkişaf etdirməyin pedaqoji-psixoloji şərtlərinə bələd olmalıdırlar.

***Tədqiqatın elmi yeniliyi.*** “Müstəqillik” anlayışının mahiyyətinə aydınlıq gətirilmiş; şagirdlərin müstəqilliyinin inkişaf etdirilməsi prosesinin nəzəri və tətbiqi müddəaları, onun mahiyyəti, məzmunu və strukturu əsaslandırılmışdır.

***İşin tətbiqi əhəmiyyətini.*** V-IX sinif şagirdlərində müstəqilliyin formalaşdırılması məqsədilə aparılan tədqiqatdan ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri faydalanacaqlar.

**Ədəbiyyat**


1. Abbasov, A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərs vəsaiti / A.N.Abbasov, – Bakı: Mütərcim, –2010, –360 s.
2. Kazımov, N.M. Pedaqoji ustalığın problemləri / N.M.Kazımov, – Bakı: Çaşıoğlu, – 2009, – 296 s.

3. Дмитриева, Н.Ю. Общая психология. Конспект лекций / Н.Ю.Дмитриева, – М., – 2007, – 128 с.
4. Зотова, И.В. Взаимосвязь классной и внеклассной работы как условие формирования самостоятельной деятельности школьников / Автореф.дис. ...канд.пед.наук. – Нижний Новгород, – 2010, – 26 с.
5. Казаренков, В.И. Основы педагогики: Интеграция урочных и внеурочных занятий школьников. Учебное пособие / В.И.Казаренков, – М.: Логос, – 2003, –160 с.
6. Кон, И.С. Психология юношеского возраста / И.С.Кон, – М: Просвещение, – 1979, – 90 с.
7. Лурия, В.Н. Об историческом развитии познавательных процессов / В.Н.Лурия, – М.: Наука, – 1994, –172 с.


**T.A.Aliyeva**

**Formation of Independent Activity in Adolescents During Extra-Class Activities**

***Summary***

The article determines that subject teachers and class teachers must be familiar with the pedagogical and psychological conditions for the development of independence in order to effectively form independence in adolescents to achieve their cognitive independence, educational independence and intellectual independence. A person capable of independent reasoning, independent thinking and independent activity does not encounter difficulties. Therefore, solving such an important problem as the formation of independence of adolescents should be the focus of attention of teaching staff.

***Keywords:*** *extracurricular activity, independent activity, independent thinking, pedagogical and psychological conditions, characteristic reproductive tasks, skills*

**Т.А.Алиева**

**Формирование самостоятельной деятельности у подростков во внеклассной деятельности**

***Резюме***

В статье определено, что учителя-предметники, классные руководители должны быть знакомы с педагогическими и психологическими условиями развития самостоятельности, чтобы эффективно формировать самостоятельность у подростков для достижения их познавательной, учебной и интеллектуальной самостоятельности. Человек, способный к самостоятельному рассуждению, самостоятельному мышлению и самостоятельной деятельности не сталкивается с трудностями. Поэтому решение такой важной проблемы, как формирование самостоятельности подростков, должно быть в центре внимания педагогических коллективов.

***Ключевые слова:*** *внеклассные мероприятия, самостоятельная деятельность, самостоятельное мышление, педагогико-психологические условия, характерные репродуктивные задачи, умения*

*Rəyçi: ped.f.d., dos. G.R.Məmmədova*

*Redaksiyaya daxil olub: 12.11.2025*